

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

# ŞƏRQ qapısı


Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 88 (23.730)

18 may 2021-ci il, çərşənbə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik




# Tarixi zəfər sonrası səfər

## Bu səfər Naxçıvanın çoxcəhətli və dinamik inkişafı ilə liderliyini bundan sonra da qoruyub saxlayacağını təsdiqlədi

***Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev ümummilli liderimizin Naxçıvan Muxtar Respublikasına çox böyük geostrateji əhəmiyyətə malik bir məkan kimi xüsusi diqqət və qayğı ilə yanaşma siyasətini dönmədən davam etdirir. Bunu ölkə başçısının onyeddiillik siyasi rəhbərliyi dövründə on beş dəfə – demək olar ki, hər il müxtəlif vaxtlarda muxtar respublikaya səfər etməsi də aydın təsdiq edir. Prezident cənab İlham Əliyevin mayın 10-da – ümummilli liderimiz Heydər Əliyevin anadan olmasının 98-ci ildönümü günü Naxçıvana səfəri isə bir sıra mühüm hadisələrlə rəmzi xarakter daşıyır.***

Ölkə başçımızın ümummilli liderin tarixi zəfər sonrası ilk doğum gününü Naxçıvanda qeyd etməsi dahi şəxsiyyətin layiqli siyasi varisi kimi ata vəsiyyətinə ləyaqətlə əməl etmənin təkcə Qarabağı erməni işğalından qurtarmaqdan ibarət olmayıb, bütöv Azərbaycan naminə Naxçıvanı da otuzillik blokadadan azad etmək olduğunu, Naxçıvanın da Qarabağ qədər əhəmiyyətli, əziz olduğunu təsdiqlədi. Bu səfər İkinci Dünya müharibəsində alman faşizmi ilə mübarizədə böyük qəhrəmanlıq və şücaət göstərən, Qələbənin qazanılmasında müstəsna rol oynayan xalqımızın 30 ilə yaxındır ki, həmin qələbə sevincinə məcburi məğlubiyyət məyusluğu qatan, bu gün isə tarixi ədalətin bərpası ilə acı xatirə kimi tarixə gömülən Şuşa işğalı günündən sonra Ali Baş Komandanımızın ata yurduna ilk sərkərdə dönüşü idi. Prezidentin Naxçıvana İkinci Vətən müharibəsində qazanılan tarixi zəfərdən sonra ilk dəfə ulu öndərin doğum günündə səfər etməsi ərazi bütövlüyümüzün bərpa olunması başda olmaqla, Azərbaycanın qazandığı bütün bugünkü uğurlara görə borclu olduğumuz dahi şəxsiyyəti – Heydər Əliyevi bəxş etmiş ata yurduna – qədim və ulu Naxçıvana minnətdarlıq duyğusu, mənəvi varislik borcundan doğan bir addım idi. Bu səfər vaxtilə ölkənin müstəqillik və inkişaf müqəddəratını həll edəcək mühüm siyasi mərhələlərin təməli qoyulduğu Naxçıvanda – ümummilli liderin ata yurdunda övlad-varis hesabatı, qalib sərkərdənin ulu öndərimizin ruhunu Qarabağlı-Naxçıvanlı – bütöv Azərbaycan müjdəsi ilə ata ocağında sevindirmək niyyətindən doğan qürur yürüşü idi. Bu, müqəddəs Ramazan ayında xalqımızı Vətən bütövlüyü haqqına qovuşduran Ulu Tanrıya şükranlıq, müqəddəs Nuh yurdunda, duaların qəbul olduğu müqəddəs Əshabi-Kəhf ziyarətgahının yerləşdiyi ulu və qədim diyarda Yaradana daha yaxın olmaq istəyi idi.

### *Liderliyi əvvəlki əzmi ilə qoruyub saxlayan Naxçıvan*

Ölkə başçısının növbəti Naxçıvan səfəri dünyanın pandemiya böhranı məngənəsində boğulduğu, iqtisadi tənəzzül yaşadığı bir dövrdə müharibədən yenicə çıxmış Azərbaycanda muxtar respublikanın timsalında sosial-iqtisadi inkişafın əvvəlki dinamik templə davam etdiyini təsdiqləmiş oldu.

Səfər çərçivəsində Prezident cənab İlham Əliyevin Naxçıvan Beynəlxalq Hava Limanının yeni uçuş-enmə zolağının təqdimatında iştirak etməsi blokada dövründə Naxçıvanın yeganə nəqliyyat əlaqəsinin hava yolları olduğunu, insanların gediş-gəliş üçün, necə deyərlər, "havadan asılı qaldığı" illəri xatırlatdı. Bu gün isə istənilən hava şəraitində beynəlxalq aviareyslərin belə, təhlükəsiz həyata keçirilməsi üçün müasir şəraitin yaradıldığını əyani şəkildə bir daha sərgilədi. Yeni uçuş-enmə zolağı inkişaf etmiş qədim diyarımızın yaxın gələcəkdə turistləri, beynəlxalq tədbir iştirakçılarını yüksək səviyyədə qarşılayıb yola salmağa imkan verəcək.

Ölkə başçımız Azərbaycan xalçaçılıq sənəti tarixində özünəməxsus yeri və rolu olan Naxçıvan xalçaçılıq məktəbinin yaşadılması və inkişaf etdirilməsi, yun və təbii boyaq bitkilərinin tədarükü üçün yerli xammal ehtiyatından səmərəli istifadə etmək məqsədilə "Azərxalça" Açıq Səhmdar Cəmiyyətinin Naxçıvan filialının, muxtar respublikanın yol-nəqliyyat kompleksinin müasirləşdirilməsi və təkmilləşdirilməsi istiqamətində görülən tədbirlərin davamı kimi uzunluğu 50 kilometr olan Culfa-Ordubad magistral avtomobil yolunun, muxtar respublikada heyvandarlığın inkişafı məqsədilə yaradılan, ölkə üzrə ikinci Süni Mayalanma Mərkəzinin, 13 min 500 sakini beynəlxalq standartlara cavab verən təmiz içməli su ilə təmin edəcək "Ordubad rayon mərkəzi və ətraf kəndlərinin içməli su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması" layihəsinin açılışlarında iştirak etdi. Eyni zamanda Ordubad dəmir yolu stansiyasında aparılan yenidənqurma işləri, ictimai xidmətlər sahəsində çox önəmli bir təsisat sayılan, Naxçıvanda informasiya-kommunikasiya texnologiyalarının ən son nailiyyətlərinin tətbiqi istiqamətində görülən işlərin davamı olan "ASAN xidmət" mərkəzinin tikintisi ilə tanışlıq oldu, milli brendimiz sayılan DOST Mərkəzinin Naxçıvanda da yaradılması ilə bağlı qərar qəbul edildi.

Prezident cənab İlham Əliyevin növbəti səfərinin digər bir rəmzi mənası İkinci Vətən müharibəsi sonrası ordusu, saxta hərbi imici tamamilə darmadağın edilən Ermənistandan fərqli olaraq Azərbaycanın hərbi qüdrətini daha da gücləndirmək müstəvisində ordu quruculuğunu uğurla, düşünülmüş şəkildə davam etdirməsi ilə əlaqədardır. Dövlətimizin başçısının iştirakı ilə Naxçıvan Muxtar Respublikası kimi strateji bölgədə Əlahiddə Ümumqoşun Ordunun hərbi aerodromunun açılışı dediklərimizin sübutudur. Xatırladaq ki, müstəqil Azərbaycanın bugünkü müzəffər Ordusunun təməli ümummilli liderimiz Heydər Əliyev tərəfindən 1991-ci il sentyabrın 7-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri kimi qəbul etdiyi ilk qərarla Naxçıvanda Dövlət Milli Müdafiə Komitəsinin yaradılması ilə qoyulmuşdu. Vaxtilə 1992-ci ilin iyul-avqust aylarında ümummilli liderin müdrik siyasəti nəticəsində Naxçıvan ərazisində yerləşən Rusiya Federasiyası Silahlı Qüvvələrinin 75-ci motoatıcı diviziyasının silah və texnikasının, yaşayış binalarının Müdafiə Komitəsinə təhvil verilməsi düşmənlə təkbətək və əliyalın mübarizə aparan, ozamankı ölkə rəhbərliyi tərəfindən tamamilə tərk edilmiş bir diyarda ordu quruculuğu baxımından ideal addım, tarixi zərurət idi. Bu gün isə muxtar respublikanın ordu potensialı artıq aviasiya texnikalarının qəbul edilməsi və saxlanmasından tutmuş müasir silah və texnika ilə təchizat baxımından əksər ölkələrin regionlarında olmayan hərbi aerodromun yaradılmasını zərurətə çevirib. Digər yeni istifadəyə verilən hərbi infrastruktur isə müasir tibbi avadanlıqla təchiz edilən 290 çarpayılıq Naxçıvan Qarnizonu Mərkəzi Hospitalı – Naxçıvan Muxtar Respublikasının ən böyük tibb müəssisəsi oldu. Xəstəxananın fəaliyyətə başlaması, 2021-2022-ci tədris ilindən etibarən Naxçıvan Dövlət Universitetində Hərbi tibb ixtisası üzrə kadr hazırlığına başlanması muxtar respublikada hərbi tibbi xidmət səviyyəsinin də yüksəldilməsinə öz töhfəsini verəcək.

Vaxtilə kontinental iqlimə malik Naxçıvanın mənfur düşmənlər üzündən elektrik enerjisinə və mavi yanacağa həsrət qalması üzündən burada həyat ritmi tamamilə pozulmuş, insanların intellekt potensialı, yaradıcılıq əmsalı, fiziki və mənəvi sağlamlığı iflic vəziyyətinə salınmışdı. Bu gün isə ümummilli lider siyasətinin uğurlu davamının bəhrəsidir ki, muxtar respublikada enerji təhlükəsizliyi tam təmin edilmişdir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Araz çayı üzərində tikilən Ordubad Su Elektrik Stansiyasının tikintisi ilə tanışlığı muxtar respublikanın enerji təchizatının çox yaxında tamamilə alternativ enerji mənbələri hesabına ödəniləcəyinə zəmanət verir.

Yeni istifadəyə verilən obyektlər ölkəmizdə, eləcə də muxtar respublikamızda inkişaf strategiyasının uğurla və davamlı həyata keçirildiyini, Naxçıvanın özünün ərzaq, enerji, müdafiə və informasiya təhlükəsizliyinə nail olduğunu, burada ordu quruculuğuna xüsusi diqqət yetirildiyini təsdiqlədi. Hər yeni obyektin, eyni zamanda yeni iş yerləri demək olduğunu nəzərə alsaq, bu həm də insan amilinə verilən yüksək dəyərin ifadəsidir. Prezident cənab İlham Əliyevin dediyi kimi: ***"Burada, Naxçıvan Muxtar Respublikasında bir çox önəmli tədbirlərdə, açılışlarda iştirak etdim. Respublika inkişaf edir, çiçəklənir, bütün məsələlər öz həllini tapır – təhlükəsizlik, sosial-iqtisadi inkişaf, sənaye, kənd təsərrüfatı, infrastruktur. Biz bundan sonra da bu yolla gedəcəyik ki, ölkəmizin hər yerində, əlbəttə ki, bizim tarixi diyarımız olan Naxçıvan Muxtar Respublikasında işlər həmişə yüksək səviyyədə görülsün, insanlar daha da yaxşı yaşasınlar və ölkəmiz daha da güclənsin".***

### *Dünyaya Naxçıvan bəyanatı*

Prezident cənab İlham Əliyev İkinci Vətən müharibəsi ərəfəsi, müharibənin gedişi, tarixi zəfər və müasir bərpa-quruculuq dövrlərində müxtəlif müsahibələr, siyasi bəyanatlar vermişdir ki, bu, Azərbaycanın ən yeni siyasi tarixinin xüsusi mərhələsini təşkil edir. Ölkə başçımız, Müzəffər Ali Baş Komandan bütün dünyaya, Azərbaycanın xarici düşmənlərinə, antiazərbaycan qüvvələrə növbəti dəfə ata yurdu Naxçıvandan səsləndi. Bu bəyanat üçün Azərbaycanın siyasi taleyində mühüm rola malik, tarixi muxtariyyətinə nail olmaqla, əzəli düşmənlərimiz qəsbkar ermənilərdən müdafiə edilməklə, ümumilikdə, Azərbaycanın ərazi bütövlüyünü ən ağır siyasi-iqtisadi, hərbi mərhələlərdə qoruyub saxlaya bilən, SSRİ kimi nəhəng imperiyaya qarşı, müstəqillik uğrunda bütöv bir ölkə səviyyəsində mübarizə aparan, eyni zamanda Şərq dünyasına açılan qapı, erməni qəsbkarlarının puça çıxan işğal xülyası olan bir məkanın – ulu Naxçıvanın seçilməsinin də dərin siyasi rəmzi var idi.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Naxçıvan Muxtar Respublikasına səfəri çərçivəsində Azərbaycan Televiziyasına müsahibəsində ümummilli lider, dünya şöhrətli siyasi xadim, dahi şəxsiyyət Heydər Əliyevin həyat və fəaliyyətini müasir dövrün məşhur siyasətçisi kimi yeni müstəvidə təhlil etdi. Ölkə başçımızın Naxçıvanın blokadada olmasına baxmayaraq, sürətlə inkişaf etməsi, yollarla, elektrik təchizatı, qazlaşdırma ilə bağlı – bütün istiqamətlər üzrə muxtar respublikada görülən işlərdən, Naxçıvanda çox böyük enerji potensialı, müasir yol infrastrukturu yaradılmasından ürəkdolusu razılıq və məmnunluq hissi ilə bəhs etməsi Naxçıvanın, elə, bütövlükdə, Azərbaycanın bədxahlarına ən tutarlı cavabdır: ***"Sənaye potensialı inkişaf edir, artır. Naxçıvan Muxtar Respublikası son 20 il ərzində iqtisadi artımın templərinə görə rekordsmen bölgədir. Ümumi daxili məhsul 10 dəfədən çox artıb. Kənd təsərrüfatı ilə bağlı görülmüş işlər nəticəsini verməkdədir. Bu gün Süni Mayalanma Mərkəzinin açılışında olduq. Bildirməliyəm ki, ölkəmizdə cəmi iki mərkəz var – biri Göygöldə, biri də Naxçıvanda. Əminəm ki, bu mərkəzin fəaliyyəti nəticəsində yaxın 4-5 ildən sonra Naxçıvanda südçülük sahəsində artıq bütün işlər tamamlanmış olacaq və Naxçıvan özünü necə ki, digər əsas ərzaq məhsulları ilə təmin edir, südlə də təmin edəcəkdir. Yəni bütün bunlar inkişafın təzahürüdür".***

Prezident cənab İlham Əliyev çox ağır və çətin şəraitdə Naxçıvanı qorumağı, müdafiə etməyi və düşməni yerinə oturtmağı ulu öndərin müstəsna xidmətlərindən biri olduğunu vurğulamaqla ümummilli liderin Azərbaycançılıq ideologiyası kontekstində bu siyasi ideya və prinsiplərə bundan sonra da sadiq qalacağını bəyan etdi: ***"Bu gün burada olmağımın xüsusi rəmzi mənası var. Naxçıvan bizim əziz diyarımızdır, Heydər Əliyevin Vətənidir. Hər bir azərbaycanlı üçün əziz, doğma diyardır və Naxçıvanın inkişafı, çiçəklənməsi artıq reallıqdır. Bu reallığı biz özümüz yaratmışıq. Bu gün ulu öndərin xatirəsinə göstərilən ən böyük diqqət məhz özünü, bax bu inkişafda təcəssüm etdirir".***

Ölkə başçısı Naxçıvan Əlahiddə Ümumqoşun Ordunun peşəkar döyüş qabiliyyətini, üç il bundan əvvəl keçirilmiş uğurlu Günnüt əməliyyatını Ali Baş Komandan kimi hərbi təhlil etdi: ***"Günnüt əməliyyatı Naxçıvan Ordusunun potensialını göstərdi, Azərbaycan Ordusunun potensialını göstərdi".*** Bu təhlilə əsasən Günnüt əməliyyatını BÖYÜK QƏLƏBƏNİN ilkin uğurlu məşqi də adlandırmaq olar. Günnüt zəfəri doğmaqda olan Zəfər Günəşinin ilk şəfəqləri kimi gələcək Zəfər yolumuza işıq saçıb onu aydınlatdı. Ali Baş Komandanın da qeyd etdiyi kimi, Günnüt əməliyyatı nəticəsində Ermənistanın ört-basdır etmək istədikləri əhəmiyyətli məğlubiyyəti – çox önəmli strateji yüksəkliklərin Ermənistan işğalından azad edilməsi nəticəsində bu gün strateji kommunikasiyalara, Ermənistandan Dağlıq Qarabağa gedən yola da nəzarət olunur və bu yola nəzarət imkanları İkinci Qarabağ müharibəsində bir çox informasiyanın əldə edilməsində köməklik göstərdi.

Ali Baş Komandan İkinci Qarabağ müharibəsində Naxçıvan Əlahiddə Ümumqoşun Ordunun hərbçilərinin – həm xüsusi təyinatlıların, həm digər birləşmələrin hərbçilərinin fəal iştirak etdiklərini, şəhidlər verdiklərini, böyük fədakarlıq göstərdiklərini də ehtiramla xatırlatdı. Yeri gəlmişkən qeyd edək ki, bu səfər zamanı ölkə başçımızın bugünkü qələbə səadətini bizlərə canları, qanları bahasına

Ardı 2-ci səhifədə

bəxş edən, zəfərin şirinliyini ömürləri bahasına bizlərə dadızdıran igid Vətən oğullarını – Naxçıvan şəhər qəbiristanlığında uyuyan Vətən müharibəsi şəhidlərinin məzarlarını ziyarət etməsi də əsl sərkərdənin, qalib sərkərdənin daxili mənəvi tələbatından, istəyindən irəli gəlirdi. Şəhidlərə dərin ehtiram, onların ailələrinə isə böyük qayğı göstərilən muxtar respublikada Ali Baş Komandanın bu ziyarəti şəhid anaları, doğmaları üçün elə qələbə sevincinə bərabər mənəvi təsəlli oldu.

Səfər zamanı Ordubad dəmir yolu stansiyası ilə tanışlıq isə ölkə başçısının da müsahibəsində vurğuladığı kimi təsadüfi deyil, Zəngəzur dəhlizinin açılması istiqamətində tarixi addımdır.

İşğalçı Ermənistanın son 30 il ərzində ölkəmizə qarşı törətdiyi mənəvi, hüquqi, iqtisadi terrorlardan biri də Naxçıvanı ərazi etibarilə Azərbaycandan ayrı salmaq idi. Düzdür, xilaskarımız olan ulu öndərin, onun ətrafında sıx birləşən, bir yumruğa dönən naxçıvanlıların şücaəti sayəsində qarı düşmən bu qədim Azərbaycan diyarını diz çökdürə, boyun əydirə, işğal edə bilmədi, lakin öz ata-baba torpağımızdan keçib öz ölkəmizə getməyə həsrət qaldıq. Və nəhayət, məşhur qırğız yazıçısı Çingiz Aytmatovun "Gün var əsrə bərabər" əsərindəki "Bu yerlərdə qatarlar şərqdən qərbə, qərbdən şərqə gələr gedər... gedər gələrdi" frazası ilə bütün dolğunluğu ifadə edə biləcəyimiz bu nisgilə də son qoyulacaq. Prezident cənab İlham Əliyevin dediyi kimi: ***"Şərqi Zəngəzur bölgəsində yerləşən Zəngilanı bizim qədim torpağımız olan Qərbi Zəngəzurla, ondan sonra Ordubad vasitəsilə Naxçıvanla və Türkiyə ilə birləşdirmək bizim növbəti tarixi nailiyyətimiz olacaq".***

Bildiyimiz kimi, 10 noyabr tarixli Bəyanata əsasən həm də Cənubi Qafqazda nəqliyyat əlaqələrinin bərpasına başlanılıb. Zəngəzur dəhlizinin açılması ilə Avrasiyanın nəqliyyat şəbəkəsi daha da genişlənəcək, Naxçıvanı Azərbaycana, Azərbaycanı isə Türk dünyasına birləşdirəcək Zəngəzur dəhlizi Türkiyə üçün Mərkəzi Asiyaya qapı rolunu da oynayacaq. Həyata keçirilməkdə olan Türkiyə Qars-Naxçıvan dəmir yolu layihəsi Naxçıvanla Türkiyəni birləşdirəcək. Növbəti mərhələdə bu dəmir yolunun Zəngəzur dəhlizi vasitəsilə Azərbaycanın qərb bölgələri ilə birləşdirilməsi Naxçıvanın da inkişafına mühüm təkan vermiş olacaq. Hazırda muxtar respublikada dəmir yolu infrastrukturunun müasirləşdirilməsi istiqamətində görülən tədbirlər də buna xidmət edir. Azərbaycan regionda gələcək sülh və iqtisadi, mədəni tərəqqiyə rəvac verəcək kommunikasiya əlaqələrinin bərpasına nail olacaq. Bu inkişafın lokomotivi isə Azərbaycanın dünyada tanınmış siyasi lideridir. Bu əraziləri polad magistrallardan da çox-çox əvvəl birləşdirən ***"Zəngilanı Naxçıvanla ayıran cəmi 40 kilometrlik Zəngəzur dəhlizidir, hansı ki, açılmalıdır və açılacaqdır",*** – deyən dövlət başçımızın polad iradəsi, "dəmir yumruğ"udur. Bu mühüm tarixi addım həm də Azərbaycanın düşməni təcavüzkar siyasətdən əl çəkib regional əməkdaşlığa vadar etməklə dünyada beynəlxalq sülh və asayişin, humanizm prinsiplərinin qarantı olduğunu təsdiq edir. Azərbaycan Respublikasının Prezidenti tarixi Naxçıvan Bəyanatında Kanada, Fransa kimi ölkələrin Azərbaycanda gedən proseslərlə, Şuşanın qaytarılması ilə bağlı bəyanatları, revanşist fikirləri rədd edərək Dağlıq Qarabağ münaqişəsinin birdəfəlik həll olunduğunu, Azərbaycanda bütün proseslərin müsbət istiqamətdə getdiyini bir daha qətiyyətlə bildirdi. Bu mühüm tarixi əhəmiyyət kəsb edən bəyanatın və tarixi Naxçıvan səfərinin məntiqi davamı olan ölkə başçısının növbəti Şuşa səfəri, milli akkordları isə ölkəmizin mədəniyyət paytaxtı Şuşanın Cıdır düzündə uzun illərdən sonra keçirilən "Xarıbülbül" musiqi festivalı və festivalda Şuşanın azad olunmasında fəal iştirak edən igid naxçıvanlıların şərəfinə səslənən "Naxçıvan" mahnısı oldu.

### *Son üç ildə iki uğurlu hesabat*

Ölkə başçısının muxtar respublikaya hər səfəri, buradakı quruculuq, inkişaf prosesi ilə tanış olması, dövlət siyasətinin, xüsusilə də yeni sosial-iqtisadi layihələrin uğurla həyata keçirilməsi ilə bağlı yüksək təəssüratla ayrılması həm də Naxçıvanın uğurlu tarixi hesabatıdır. Bu mənada, dövlət başçımızın son səfərindən gəlinən qənaəti Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2019-cu ilin noyabr ayında Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovu qəbul etməsinin davamı olan növbəti uğurlu hesabat kimi də dəyərləndirmək olar.

Vaxtilə 2019-cu ildə müzakirə olunan məsələlərə diqqət yetirək. Naxçıvanın təhlükəsizliyi məsələsi ilə bağlı Ali Məclisin Sədri muxtar respublikanın müdafiəsi üçün orada yerləşən hərbi hissələrin Ali Baş Komandanın hər bir tapşırığını yerinə yetirməyə tam hazır olması ilə bağlı ölkə başçısı qarşısında öhdəlik vermişdi. Bu öhdəlik dövlət başçımızın Naxçıvan səfərində verdiyi müsahibədə də vurğuladığı kimi, İkinci Qarabağ müharibəsində Naxçıvan Ordusunun hərbçilərinin – həm xüsusi təyinatlıların, həm digər birləşmələrin hərbçilərinin fəal iştirak etməsini, şəhidlər verməsini, böyük fədakarlıq göstərməsini qürurla xatırlatması ilə özünü doğrultdu. Müsahibədə ilk dəfə olaraq o da bildirildi ki, Naxçıvan Ordusunda olan silahların, sursatların bir hissəsi də Bakıya aparılmış və cəbhə bölgəsinə göndərilmişdir. Ölkə başçısının ***"Naxçıvan Muxtar Respublikasının həm respublikanın hüdudlarının müdafiə edilməsində, ümumiyyətlə, ölkəmizin ordu potensialının gücləndirilməsində çox böyük rolu var və hər zaman Naxçıvan lazımi dərəcədə müdafiə olunacaqdır"*** mesajı "dəmir yumruq" altında can verən, bununla da Naxçıvan istəhası da ömürlük gözündə qalan düşmənə daha bir ölümcül zərbə oldu.

Bəhs etdiyimiz qəbul zamanı Ali Məclis Sədrinin 36 meqavat gücündə Ordubad Su Elektrik Stansiyasının, Culfa-Ordubad yolunun, Süni Mayalanma Mərkəzinin tikintisi və digər məsələlərlə bağlı ölkə başçısı qarşısında götürdüyü öhdəliklər Prezident cənab İlham Əliyevin mayın 10-dakı səfəri zamanı özünü tamamilə doğrultdu ki, bu da muxtar respublikada ümummilli lider Heydər Əliyev ideyalarının, bu ideyaların davamı olan müasir dövlət siyasətinin dəqiqlik və sədaqətlə həyata keçirildiyini bir daha təsdiqlədi.

*Ölkə başçısının növbəti səfəri bütünlüklə onu isbat etdi ki, Naxçıvan Muxtar Respublikasında daha sürətli inkişaf istiqamətində görülən işlər muxtar respublikanın inkişafında yeni mərhələnin əsasını qoymuşdur. Prezident cənab İlham Əliyevin də dediyi kimi:* ***"...muxtar respublika hərtərəfli inkişaf edir və bu gün Naxçıvan ölkəmizin ən inkişaf etmiş bölgələrindən biridir. Əminəm ki, Naxçıvan bu liderliyi bundan sonra da saxlayacaqdır".***

**Mehriban SULTAN**
***Naxçıvan Muxtar Respublikasının Əməkdar jurnalisti***

# Naxçıvan inkişaf və sabitlik diyarıdır

*Bu gün uğurla inkişaf edən – tərəqqi yolunda inamla addımlayan Azərbaycan yeni nailiyyətlər qazanmaqla öz qüdrətini daha da artırır. Bunu mümkün edən əsas amil isə xalqımızın ümummilli lideri Heydər Əliyevin əsasını qoyduğu siyasətin Prezident cənab İlham Əliyev tərəfindən müvəffəqiyyətlə davam etdirilməsidir.*

*Bunu Milli Məclisin Regional məsələlər komitəsinin sədri Siyavuş Novruzov deyib.*

### *Naxçıvan ölkəmizin ən inkişaf etmiş bölgələrindən biridir*

Komitə sədri bildirib ki, milli tərəqqimizin mühüm xüsusiyyətlərindən biri də regionların tarazlı və sürətli inkişafının təmin olunmasıdır. Bu gün ölkəmizin digər bölgələri kimi, Naxçıvan Muxtar Respublikası da uğurla inkişaf edir, qarşıya qoyulan hədəflər reallaşdırılır. Ümumiyyətlə, Naxçıvanın tənəzzüldən xilas olaraq inkişaf yoluna çıxmasının əsası ümummilli liderimiz Heydər Əliyev tərəfindən qoyulub. 1990-cı illərin əvvəlində olduqca gərgin və mürəkkəb şəraitdə olan muxtar respublika ulu öndərin misilsiz xidmətləri nəticəsində böyük uğurlar qazanıb. Ötən müddət ərzində Heydər Əliyev ideyaları əsasında görülən işlər blokada şəraitində olan Naxçıvanın nailiyyətlərini davamlı edib.



Dövlətimizin başçısının mayın 10-da xalqımızın ümummilli lideri Heydər Əliyevin Vətəninə – Naxçıvana səfəri isə əlamətdar hadisə olmaqla yanaşı, muxtar respublikanın gələcək inkişafı baxımından çox önəmlidir. Prezident cənab İlham Əliyev deyib: ***"Bu gün burada olmağımın xüsusi rəmzi mənası var. Naxçıvan bizim əziz diyarımızdır, Heydər Əliyevin Vətənidir. Hər bir azərbaycanlı üçün əziz, doğma diyardır və Naxçıvanın inkişafı, çiçəklənməsi artıq reallıqdır. Bu reallığı biz özümüz yaratmışıq. Bu gün ulu öndərin xatirəsinə göstərilən ən böyük diqqət məhz özünü, bax bu inkişafda təcəssüm etdirir".***

Siyavuş Novruzov qeyd edib ki, dövlət başçısı səfər zamanı bir sıra infrastruktur layihələrinin açılışında iştirak edib. Prezident cənab İlham Əliyev Azərbaycan Televiziyasına müsahibəsində ***"Naxçıvan sürətlə inkişaf edir. Bütün sahələr üzrə işlər müsbət istiqamətdə gedir"***, – deyib. Əlbəttə, bu gün Naxçıvan Muxtar Respublikasının hərtərəfli inkişafı və təhlükəsizliyi Prezident cənab İlham Əliyevin daim diqqət mərkəzindədir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun rəhbərliyi ilə həyata keçirilən tədbirlərin nəticəsi kimi, muxtar respublika iqtisadiyyatının dayanıqlı inkişafı təmin olunub, əhalinin rifahı daha da yaxşılaşıb. Muxtar respublika ərazisində genişmiqyaslı abadlıq-quruculuq işləri görülüb, müasir standartlar əsasında təhsil müəssisələri, sağlamlıq ocaqları tikilib və ya əsaslı təmir olunub, respublika əhəmiyyətli bütün kənd



yolları yenilənib, yüksək səviyyəli infrastruktur quruculuğu həyata keçirilib, fasiləsiz elektrik, qaz və su təminatı yaradılıb. Bütün bunlar inkişaf və tərəqqinin bariz nümunəsidir. Eyni zamanda investisiya fəallığının güclənməsi, sahibkarlığın stimullaşdırılması, təşəbbüskarlığa geniş meydan verilməsi muxtar respublikanın iqtisadi dayaqlarını xeyli möhkəmləndirib.

Beləliklə, Naxçıvan bu gün Prezident cənab İlham Əliyevin yüksək diqqət və qayğısı, həmçinin Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun rəhbərliyi ilə həyata keçirilən uğurlu fəaliyyət sayəsində öz intibah dövrünü yaşayır. Naxçıvan əhalisi gələcəyə böyük inamla baxır və bugünkü nailiyyətləri gələcək inkişafın təminatçısı kimi görür. Bir sözlə, dövlətimizin başçısının vurğuladığı kimi: ***"Muxtar respublika hərtərəfli inkişaf edir və bu gün Naxçıvan ölkəmizin ən inkişaf etmiş bölgələrindən biridir. Əminəm ki, Naxçıvan bu liderliyi bundan sonra da saxlayacaqdır".***

### *Müasir silahlar və texnikalarla təchiz edilmiş Əlahiddə Ümumqoşun Ordu yüksək döyüş qabiliyyətinə malik olduğunu sübuta yetirib*

Komitə sədri bildirib ki, bu səfər zamanı Prezident cənab İlham Əliyev Əlahiddə Ümumqoşun Ordunun hərbi aerodromunun açılışında da iştirak edib. Ümumiyyətlə, həm ulu öndərimiz, həm də Prezident cənab İlham Əliyev Naxçıvanın müdafiə potensialının möhkəmlənməsinə həmişə böyük diqqət göstərib. Təsadüfi deyil ki, dövlət başçısının göstərişi ilə Naxçıvanda Əlahiddə Ümumqoşun Ordu yaradılıb, ordu ən müasir silah və texnika ilə təchiz edilib.

Sentyabrın 27-dən başlayaraq noyabrın 10-dək davam edən, müzəffər Ordumuzun tarixi Qələbəsi ilə nəticələnən 44 günlük müharibədə Naxçıvan Əlahiddə Ümumqoşun Ordunun hərbi qulluqçuları da fəal iştirak ediblər. Əlahiddə Ümumqoşun Ordunun hərbçiləri işğal altında olan rayonlarımızın, o cümlədən bu gün Azərbaycanın mədəniyyət paytaxtı olan – əzəli torpağımız Şuşanın azad olunmasında mühüm rol oynayıblar. Təsadüfi deyil ki, Naxçıvan Əlahiddə Ümumqoşun Ordunun hərbi qulluqçuları göstərdikləri rəşadətə görə Prezident cənab İlham Əliyevin müvafiq qərarları əsasında "Vətən Müharibəsi Qəhrəmanı" fəxri adına layiq görülüb, orden və medallarla təltif olunublar.

Əlbəttə, Naxçıvan Əlahiddə Ümumqoşun Ordunun hərbi qulluqçularının öz vəzifə borclarını şərəflə, ləyaqətlə və peşəkarlıqla yerinə yetirmələri yüksək vətənpərvərlik ruhu ilə yanaşı, həyata keçirilən ordu quruculuğunun real nəticəsidir. Ötən müddət ərzində Əlahiddə Ümumqoşun Ordunun birləşmələrinin maddi-texniki bazası gücləndirilib, bu istiqamətdə kompleks tədbirlər həyata keçirilib, xidmətin nümunəvi təşkili təmin olunub. Hərbi kadr hazırlığı da bu prosesə dəstək verən əhəmiyyətli amillərdəndir. Ötən dövrdə Naxçıvan şəhərində fəaliyyət göstərən Heydər Əliyev adına Hərbi Liseyin maddi-texniki bazasının möhkəmləndirilməsi, təlim-tədris üçün müasir tədris və məişət şəraitinin yaradılması isə ordumuzun peşəkar zabitlərlə təminatına mühüm töhfə olub.



"Bütövlükdə, Əlahiddə Ümumqoşun Ordu 2018-ci ildəki uğurlu Günnüt əməliyyatından sonra tariximizə şanlı Vətən müharibəsi kimi daxil olan İkinci Qarabağ müharibəsində də yüksək döyüş hazırlığına malik olduğunu sübuta yetirib. Şübhəsiz ki, Əlahiddə Ümumqoşun Ordu Ali Baş Komandanımızın döyüş əmrinə hazır, yüksək döyüş imkanlarına, müasir silah və texnikalara malik qüvvə kimi bundan sonra da həm muxtar respublikanın müdafiəsinin etibarlı təşkilində, həm də Azərbaycanın ərazi bütövlüyünün qorunmasında vacib rol oynayacaq", – deyə o bildirib.

### *Muxtar respublikanın inkişafında yeni mərhələ*

Torpaqlarımızın işğaldan azad edilməsindən sonra ölkəmizin qarşısında yeni perspektivlər açılıb. Azad edilmiş ərazilərdə abadlıq-quruculuq işlərinin görülməsi, o cümlədən regionda nəqliyyat-kommunikasiya xətlərinin bərpa olunması ölkəmizin inkişafında yeni mərhələnin başlanmasını təmin edəcək. Bu barədə danışan Siyavuş Novruzov qeyd edib ki, ən vacib məqamlardan biri yeni kommunikasiya vasitəsilə Azərbaycanın Naxçıvan Muxtar Respublikası vasitəsilə Türkiyə ilə birləşməsi, Azərbaycanın əsas hissəsi ilə muxtar respublika arasında birbaşa quru əlaqəsinin yaranmasıdır. Yeri gəlmişkən mayın 10-da Prezident cənab İlham Əliyevin tanış olduğu Ordubad dəmir yolu stansiyasında aparılan yenidənqurma işləri də bu baxımdan olduqca böyük əhəmiyyət daşıyır. Dövlət başçısının bildirdiyi kimi: ***"Şərqi Zəngəzur bölgəsində yerləşən Zəngilanı bizim qədim torpağımız olan Qərbi Zəngəzurla, ondan sonra Ordubad vasitəsilə Naxçıvanla və Türkiyə ilə birləşdirmək bizim növbəti tarixi nailiyyətimiz olacaq. Əminəm ki, bu, olacaqdır, məndə heç bir şübhə yoxdur. Bir daha demək istəyirəm ki, Azərbaycan öz üzərinə düşən vəzifələri icra edəcək və əlindən gələni edəcək ki, bu layihənin həyata keçirilməsində heç bir problem olmasın".***

Təbii ki, ölkəmizin liderliyi ilə regionda yeni infrastrukturun yaranması Azərbaycanın tranzit əhəmiyyətinin artması, iqtisadi inkişafının sürətlənməsi baxımından əhəmiyyətlidir. Eyni zamanda bu proses uzun müddət blokada vəziyyətindən əziyyət çəkən Naxçıvan Muxtar Respublikasının daha sürətli inkişafı üçün yeni imkanlar yaradır. Əminliklə söyləmək olar ki, görülən bütün bu işlər muxtar respublikanın inkişafında yeni mərhələnin başlanmasını təmin edəcək.

**AZƏRTAC**



***YUNESKO-nun Beynəlxalq Muzeylər Şurasının 1977-ci ildə qəbul etdiyi qərara əsasən 18 may bütün dünyada "Beynəlxalq Muzeylər Günü" kimi qeyd edilir. Bu günün qeyd olunmasında əsas məqsəd ictimaiyyətin diqqətini mədəni irsə cəlb etməklə, xalqlar arasında mədəni mübadilə və əməkdaşlığın inkişafına kömək göstərməkdən ibarətdir.***

# Xalqımızın çoxəsrlik tarixini özündə əks etdirən maddi mədəniyyət xəzinəsi – muzeylər

Beynəlxalq Muzeylər Günü qədim tarixə və zəngin mədəniyyətə malik Azərbaycanda da qeyd edilir. Minlərlə dünya, ölkə və yerli əhəmiyyətli daşınmaz tarixi və mədəniyyət abidələri olan ölkəmiz çox qədim dövrlərə aid zəngin eksponatlara sahibdir. Həmin eksponatlar muzeylərdə mühafizə olunmaqla zəngin mədəni irsimizin qorunması və təbliği işində mühüm rol oynayır. Bu gün muzeylərimiz maddi-mənəvi incilərin və milli sərvətlərin nümayiş etdirildiyi geniş bir şəbəkəyə malikdir.

Azərbaycanın ictimai-siyasi, mədəni həyatında XIX əsrin ikinci yarısından etibarən sürətlə cərəyan edən proseslər muzey işinin də təşkilinə təkan vermişdir. Muxtar respublikamızda da muzey işinin özünəməxsus inkişaf tarixi vardır. 1896-cı ildə böyük yazıçı və dramaturqumuz Cəlil Məmmədquluzadə Nehrəm kənd məktəbində muzey yaratmaq təşəbbüsü ilə Xalq Məktəbləri İdarəsinə yazılı müraciət etmiş və Azərbaycanda ilk dəfə olaraq bu kənd məktəbində Naxçıvanın tarixinə dair maddi mədəniyyət nümunələrinin toplandığı muzey yaratmışdır. Naxçıvan Sovet Sosialist Respublikası Xalq Komissarları Sovetinin 1924-cü il 30 oktyabr tarixli Qərarına əsasən Naxçıvanda Tarix-Etnoqrafiya Muzeyi təşkil edilmişdir. 1926-cı ildə Naxçıvan şəhər sakini Balabəy Əlibəyovun yaratdığı şəxsi muzey dövlət muzeyi kimi fəaliyyət göstərməyə başlamışdır. 1925-ci ildə Azərbaycan üzrə yaradılan cəmiyyətin bir şöbəsi kimi fəaliyyət göstərməyə başlayan "Naxçıvanı Tədqiq və Tətəbbö" Cəmiyyətinin də muzeyin zənginləşməsində müəyyən xidmətləri olmuşdur.

Ölkəmizdə muzey işinin, muzeyşünaslığın inkişafı ümummilli liderimiz Heydər Əliyevin adı ilə bağlıdır. Ulu öndər ötən əsrin 70-80-ci illərində Azərbaycanda yeni muzeylərin yaradılması, onların bazasının möhkəmləndirilməsi, muzey fondlarının zənginləşdirilməsi və ekspozisiyaların müasir şəkildə qurulması üçün mühüm tədbirlər həyata keçirmişdir. Xalqımızın milli tarixi və mədəni irsinin qorunmasında muzeylərin dəyərini dərindən və həssaslıqla duyan ulu öndər respublikada müvafiq şəbəkənin genişləndirilməsini, onun maddi-texniki bazasının gücləndirilməsini daim diqqətdə saxlamışdır. Azərbaycan mədəniyyətinin Üzeyir Hacıbəyli, Hüseyn Cavid, Cəlil Məmmədquluzadə, Məmməd Səid Ordubadi, Cəfər Cabbarlı, Bülbül, Səməd Vurğun, Niyazi və digər nəhəng simalarının memorial-xatirə, ev-muzeyləri məhz ulu öndər Heydər Əliyevin şəxsi təşəbbüsü sayəsində yaradılmışdır. Həmçinin həmin illər ölkəmizdə bu sahəni inkişaf etdirmək üçün Azərbaycan Muzeylər İdarəsi, Muzey İşi üzrə Respublika Elmi-Metodik Mərkəzi, Muzeylərin Bədii Tərtibatı Müəssisəsi, Muzey Sərvətlərinin və Xatirə Əşyalarının Elmi-Bərpa Mərkəzi kimi qurumlar yaradılaraq fəaliyyətə başlamışdır. Qısa zaman ərzində Azərbaycanın 60-dək rayonunda tarix-diyarşünaslıq muzeyləri yaradılmışdır. Şərur, Babək, Ordubad, Culfa və Şahbuz rayonlarında tarix-diyarşünaslıq muzeylərinin yaradılması da həmin dövrə təsadüf edir. Azərbaycanda 1969-cu ilədək cəmi 29 muzey fəaliyyət göstərmişdir ki, bunlardan da yalnız biri xatirə muzeyi kimi nəzərdə tutulmuşdur. Ümummilli liderimizin hakimiyyəti illərində ölkəmizdə 111 müxtəlif profilli muzey yaradılmışdır.

***"Milli ənənələrimizin nə qədər dəyərli olduğunu dünyaya gələn yeni nəsillərə çatdırmaq və onları bu ənənələr əsasında tərbiyə etmək üçün muzeylər lazımdır"***, – deyən ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə müstəqillik illərində də muzey işi öz inkişafının yeni mərhələsinə qədəm qoymuşdur. Muzey işçilərinin respublika müşavirəsi keçirilmiş, "Respublikada muzey işinin vəziyyəti və onun yaxşılaşdırılması haqqında" Qərar qəbul edilmişdir. 2000-ci ildə qəbul edilən "Muzeylər haqqında" Azərbaycan Respublikasının Qanunu ölkəmizdə muzeylərin fəaliyyətinin təşkilati-hüquqi əsaslarını müəyyən edir və bunlarla bağlı münasibətləri tənzimləyir. Qanunda muzey fəaliyyəti sahəsində dövlət siyasətinin əsas prinsipləri və dövlətin vəzifələri, muzeylərin hüquqları, muzey fondları, muzeylərə dövlət qayğısı və nəzarəti, bu sahədə beynəlxalq əməkdaşlıq kimi əhəmiyyətli məsələlər təsbit edilmişdir. Bundan başqa, bu sənədə əsasən muzey maddi mədəniyyət abidələrinin komplektləşdirilməsi, mühafizəsi, öyrənilməsi, kütləvi nümayişi və təbliğinin həyata keçirildiyi mədəniyyət, elmi-tədqiqat müəssisəsidir.

***"Xalqımızın ən qədim zamanlardan müasir dövrədək tarixini və mədəniyyətinin inkişaf yolunu əks etdirən Azərbaycan muzeyləri ölkəmizdə zəngin mədəni irsin qorunması və təbliğ olunması işində mühüm rol oynayır"***, – deyən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən də bu sahədə uğurlu addımlar atılır, mühüm işlər həyata keçirilir. Ölkəmizdə 200-dən çox muzeyin fəaliyyət göstərməsi bunun bariz ifadəsidir. Dövlət başçısının "Azərbaycanda muzey işinin yaxşılaşdırılması haqqında" 2007-ci il 6 mart tarixli Sərəncamı və 2009-cu il 22 may tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycanın regionlarında fəaliyyət göstərən muzeylərin müasir standartlara uyğun təmirinə, yeni avadanlıq və zəruri eksponatlarla təchizatına dair xüsusi tədbirlər planı" bu sahənin hüquqi bazasının formalaşmasına, dünyanın nüfuzlu muzeyləri ilə əlaqələrin genişlənməsinə imkan yaratmışdır. Eyni zamanda "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasının gerçəkləşdirilməsi məqsədilə Prezident cənab İlham Əliyevin 2013-cü il 27 dekabr tarixli Sərəncamı ilə təsdiq olunmuş "Daşınmaz tarix və mədəniyyət abidələrinin bərpası, qorunması, tarix və mədəniyyət qoruqlarının fəaliyyətinin təkmilləşdirilməsi və inkişafına dair 2014-2020-ci illər üzrə Dövlət Proqramı"na uyğun olaraq milli-mədəni irsimizin qorunması dövlət əhəmiyyətli prioritet məqsəd kimi qarşıya qoyulmuşdur.



Təəssüf ki, neçə-neçə tarixi abidə və muzeylərimiz ötən əsrin 90-cı illərində erməni işğalçıları tərəfindən qarət olunmuş və dağıdılmışdır. Erməni faşistləri 22 muzeyi, 4 rəsm qalereyasını tamamilə məhv etmişlər. Canlı muzey olan və bu gün düşmən işğalından azad edilən Şuşada 8 muzey fəaliyyət göstərmişdir. Dövlət Qarabağ Tarixi Muzeyi, dahi bəstəkar Üzeyir Hacıbəylinin ev, vokal sənətimizin banisi Bülbülün memorial, görkəmli musiqiçi və rəssam Mir Möhsün Nəvvabın xatirə muzeyləri, Azərbaycan Xalça Muzeyinin Şuşa filialı, görkəmli musiqiçi Qurban Pirimovun Ağdam rayonundakı xatirə, Qubadlı, Zəngilan, Cəbrayıl, Ağdam, Füzuli, Xocalı rayonlarının tarix-diyarşünaslıq muzeyləri tamamilə qarət edilmişdir. Keçmiş SSRİ-də yeganə olan Ağdam Çörək Muzeyi ermənilər tərəfindən tamamilə yerləyeksan olunmuşdur. Artıq bu torpaqlar şanlı Ordumuz tərəfindən azad edilmişdir. Həmin torpaqlarda yaxın gələcəkdə muzeylərimizin fəaliyyəti bərpa ediləcək, milli mədəniyyətimizi, qədim tariximizi nümayiş etdirən mədəniyyət müəssisələri ölkəmizin muzey şəbəkəsinə qoşulacaqdır.



Naxçıvan Muxtar Respublikasında da muzeylərin fəaliyyətinin canlandırılması, yeni muzeylərin yaradılması sahəsində mühüm işlər görülür, bu mədəniyyət ocaqları muzeyşünaslığın yeni nailiyyətlərinə əsaslanaraq yaradılır, Azərbaycan tarixinin yeni uğurlu səhifələri muzey ekspozisiyalarında əksini tapır. Təbii ki, ötən əsrin 80-90-cı illərində Naxçıvan Muxtar Respublikasında baş verən proseslər, sosial-iqtisadi böhran, cəmiyyətdəki qeyri-sabitlik muzeylərin də tamaşaçılarını itirməsinə səbəb olmuş və bu mədəniyyət ocaqlarını baxımsız hala salmışdır. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin diqqət və qayğısı nəticəsində muzeylərimiz müasir tələblər əsasında yenidən qurulmuş, muzey sahəsində mühüm işlər həyata keçirilmişdir. 1997-ci ilədək Naxçıvan Muxtar Respublikasında 13 muzey fəaliyyət göstərirdisə, hazırda muxtar respublikada 1 rəsm qalereyası və 29 müxtəlif profilli muzey fəaliyyət göstərir. Bu mədəniyyət ocaqlarında xalqımızın tarixini, həyat tərzini, adət-ənənələrini özündə əks etdirən 140 mindən çox eksponat toplanmışdır. Ötən il muxtar respublikanın muzeylərinə 2 min 348 eksponat daxil olmuşdur. Bu ilin 4 ayında isə muzeylərimiz 537 yeni eksponatla zənginləşdirilmişdir. Muxtar respublika sakinlərinin evlərində olan eksponatları muzeylərə təqdim etməsi ənənə halını almışdır ki, bu da muzey fondlarının zənginləşdirilməsinə xidmət etməklə, tarixi-mədəni irsimizin qorunması və təbliği işinə şərait yaradır.

2012-ci ildə Bəhruz Kəngərli Muzeyi əsaslı şəkildə yenidən qurulmuş, 2013-cü ildə "Gəmiqaya" Tarix-Bədii Qoruğu və muzey üçün bina istifadəyə verilmişdir. Tarix-Bədii Qoruq dəniz səviyyəsindən 3700 metr yüksəklikdə yerləşməklə açıq səma altında nadir muzeylərdən biridir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksinin yaradılması haqqında 2013-cü il 5 iyun tarixli Sərəncamına əsasən Naxçıvan şəhərində daha bir muzey yaradılmışdır. 2014-cü ildə Şahbuz rayonundakı Nursu kəndində Xalq şairi Məmməd Arazın ev-muzeyi, Naxçıvan şəhərində Dövlət Bayrağı Meydanı və Muzeyi istifadəyə verilmişdir. 2015-ci ildə Naxçıvan şəhərində Xatirə Muzeyinin, Şərur rayonundakı Cəlilkənddə Cəlil Məmmədquluzadənin Xatirə Muzeyinin yeni binaları, həmçinin Ordubad şəhərində Məhəmməd Tağı Sidqinin ev-muzeyi fəaliyyətə başlamışdır. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Culfa rayonunda "Əlincəqala" tarixi abidəsinin bərpa edilməsi haqqında" 2014-cü il 11 fevral tarixli Sərəncamına əsasən qalada bərpa işləri aparılmış və burada muzey yaradılmışdır. 2018-ci ilin aprelində Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Naxçıvan Duz Muzeyinin yaradılması haqqında" 2017-ci il 12 sentyabr tarixli Sərəncamına əsasən Naxçıvan Duz Muzeyi istifadəyə verilmişdir.

Qədim diyarımızda geniş muzeylər şəbəkəsi yaradılmaqla bərabər, həm də onların müxtəlif profilli olması diqqət mərkəzində saxlanılır. Muxtar respublika əhəmiyyətli muzeylərlə yanaşı, tarix-diyarşünaslıq muzeyləri, ev-muzeyləri, xatirə muzeyləri, muzey kompleksləri, dövlətçilik tariximizlə bağlı muzeylərin yaradılması həm də mədəni irsimizin qorunması, gənc nəslin mənəvi-estetik, ideya-siyasi dünyagörüşünün zənginləşməsində və vətənpərvərlik tərbiyəsində mühüm rol oynayır. Muxtar respublikanın rayonlarında da muzeylərin fəaliyyət göstərməsi bura gələn insanların zəngin tarix və mədəniyyətimizlə yanaşı, görkəmli şəxsiyyətlərimiz haqqında da ətraflı məlumat almalarına imkan verir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov demişdir: ***"Muzeylər xalqımızın milli mədəniyyət nümunələrini yaşadan müqəddəs yerlərdir. Ona görə də muzeylər daim zənginləşdirilməli, qorunmalı və ziyarət olunmalıdır... Xalqımızın qədim və zəngin tarixi vardır. Tariximiz isə muzeylərdə yaşayır. Bu mənada, muzeylərimiz həm də qürur mənbəyimizdir".***

Gənc nəslin muzeylərimizdə olması onların qədim və zəngin tariximiz və bu günümüz haqqında dərin biliklərə, geniş dünyagörüşünə malik olmasına, milli dəyərlərə, milli-mədəni və tarixi irsimizə məhəbbət ruhunda formalaşmasına xidmət edir. Bunun üçün muxtar respublikanın təhsil müəssisələrinin muzeylərlə əlaqələrinə xüsusi diqqət ayrılır. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Naxçıvan Muxtar Respublikasının təhsil müəssisələrində elektron təhsilin təşkili ilə bağlı əlavə tədbirlər haqqında" 2014-cü il 20 iyun tarixli Sərəncamına əsasən muxtar respublikada məktəb-muzey şəbəkəsi yaradılmış, Azərbaycanın tarixi və mədəniyyəti, görkəmli şəxsiyyətlərimizlə bağlı distant dərslər keçilmiş, dərslərə hər dəfə muxtar respublikanın 200-dən çox ümumtəhsil, orta ixtisas və peşə məktəbi qoşulmuşdur. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsi haqqında" 2015-ci il 27 iyul tarixli və "Ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsinə dair əlavə tədbirlər və innovasiyaların dəstəklənməsi haqqında" 2019-cu il 3 aprel tarixli sərəncamlarına əsasən muxtar respublikanın ali təhsil müəssisələrində muzeyşünaslıq, arxiv işi və abidələrin qorunması üzrə təhsil alan tələbələr üçün nəzərdə tutulmuş tədbirlər davam etdirilir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Muzeylərlə əlaqələrin gücləndirilməsi haqqında" 2014-cü il 19 dekabr tarixli Sərəncamına uyğun olaraq mərkəzi və yerli icra hakimiyyəti orqanları kollektivlərinin muzeylərə gedişi maddi-mənəvi sərvətlər xəzinəsi olan muzeylərə marağın artmasına, tariximizin, mədəni irsimizin və dövlətçilik ənənələrimizin hərtərəfli öyrənilməsinə imkanlar açmışdır. Muxtar respublikanın muzeylərinə gələnlərə pulsuz xidmət göstərilir.

Naxçıvanda bir sıra muzeylərin internet saytı istifadəyə verilmiş, saytda muzey ekspozisiyalarını internet üzərindən virtual olaraq birbaşa izləmək imkanı yaradılmışdır. Həmçinin muxtar respublikadakı muzeylərin onlayn fəaliyyəti təşkil edilmişdir. Belə ki, mütəmadi olaraq muxtar respublika muzeylərində ekskursiyalar keçirilmiş, bu ekskursiyalar Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin internet resurslarından onlayn formada yayımlanmışdır.

***Muxtar respublikanın muzeylərində 300-dək əməkdaş çalışır. Son illər muzey işçilərinin Azərbaycan Respublikasının və Naxçıvan Muxtar Respublikasının fəxri adlarına layiq görülməsi, medallarla təltif edilməsi onların əməyinə verilən yüksək qiymətin ifadəsidir. Muzey işinin səviyyəsinin yüksəldilməsi məqsədilə təşkil olunan eksponat təqdimatları, seminar-treninqlər, dəyirmi masalar, elmi konfranslar bu sahənin daha da təkmilləşməsinə öz töhfəsini verəcəkdir.***

***Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin mətbuat xidməti***

# 44 üstəgəl 2 və ya zəfər + zəfər




***44 günə bərabər 2 gündən, 44 günlük zəfərin üstünə gələn 2 günlük zəfərdən yazmaya bilmədim. Bu yazını Şuşada Cıdır düzündə keçirilən festivalı televiziya vasitəsilə izləyə-izləyə yazıram. Bir qədər doluxsuna-doluxsuna, çox qürur duya-duya, lap çox fəxr edə-edə yazıram. Necə ki 44 günlük müharibədə ölkəmizin Prezidenti, Ali Baş Komandanımız cənab İlham Əliyevin torpaqlarımızın işğaldan azad olunması münasibətilə xalqımıza müraciətlərindən sonra "Qarabağ" dastanının boylarını səhər-axşam, bəzən gecənin yarısınadək də olsa, yazıb mətbuata verirdim, bu festivalı da seyr edərkən eyni duyğuları yaşadım. Yazmağı özümə borc bildim, daha doğrusu, yazmaya bilmədim.***

Bu yazını "Qarabağ" şikəstəsinin Şuşanın dağlarına, düzlərinə səpələnən səsini hər daşın, qayanın, torpaqdan boylanan kiçik bir çiçəkdən, otdan tutmuş göydəki buludlara qədər "ciyərlərinə" çəkdiyini duyaraq yazıram. Səmada qartalın süzməsindəki qüruru, doğma musiqini eşidib Cıdır düzünə üz tutan quşların sevincini duyaraq yazıram. İkinci Qarabağ müharibəsində şəhid olan oğullarımız keçir bir-bir gözlərim önündən... Şuşadakı qəhrəmanlıqları, əlbəyaxa döyüşləri xatırlayaraq, "öldü var, döndü yoxdur!" iddiasını duyaraq yazıram. Yarımçıq qalmış ömürləri, yarımçıq qalmış arzuları, diləkləri duyaraq yazıram... O zaman tam olan yenə də həmişəki idi: torpaqlarımızın azad olunması hər kəsin eyni istəklə arzu etməsi. Bu arzu bütün ömürlərdən, arzulardan əziz idi azərbaycanlılar üçün. Ona görə ömürlər yarımçıq qaldı, minlərlə şəhid qurban oldu Qarabağa. Elə Şuşada keçirilən "Xarıbülbül" musiqi festivalının şəhidlərimizin ruhuna həsr olunmasında məqsəd də bu musiqinin sədaları fonunda zəfərlə onların ruhunu bir daha müjdələmək, azad etdikləri Qarabağda səslənən musiqi ilə ruhlarını bəzəmək idi.

Budur, 44 gündə dronların göy üzündəki gəzintisi düşməni bir-bir arıtladığı kimi, budəfəki dronlar Şuşanın füsunkarlığını Azərbaycan musiqisinin əsrarəngizliyi ilə birləşdirib Qarabağa, oradan Azərbaycana yayır. Ucsuz-bucaqsız dərələr, sıldırım qayalar bir andaca musiqini udur, sanki yox edir. Bu, bir həsrətdən doğan aclıqmı, ehtiyacmı? Bəli, elədir... Bir qərinəyə yaxın həsrətin bitdiyi andır bu. Doğmaların gəlişidir bu. Xarıbülbülün gözlərinin sevinc yaşı ilə dolduğu andır bu. Üzeyirin, Natəvanın, Vaqifin, Xanın qürbətinin sona çatdığı andır. Qürur duyuram... Festivaldakı insanlar da qürur duyur. Qürura bax, Şuşadan ətrafa yayılıb Qarabağ boyda olur. Yox, yox, Azərbaycan boyda olur. Buradan dünyaya yayılır. Müharibədən sonrakı musiqi festivalı ilə bu əzəli torpaqların kimə məxsus olduğunu sərgiləyir. 30 il öncəki musiqi festivallarının davamıdır bu. Axı Şuşa festivalların keçirildiyi məkan olub. Burada, Cıdır düzündə erməni necə yallı gedə bilərdi? O yad ayaqlar, o yad nəfəslər, o naməlum musiqi Şuşanın sinəsinə yalnız dağ çəkə bilərdi. Çəkdi də. Ölmək, yox olmaq əlində olsa idi, o yallıdan sonra Şuşa yer üzündən çoxdan silinmiş olardı. Lakin taleyi öz əlində deyildi ki... Yaxşı ki, dözdü, dayandı, yolunu gözlədi soydaşlarının. Budur, qayıdıb onlar, qayıdacaqdılar da. Torpağı erməniyə verməyəcəkdilər ki...



Nə gözəl musiqilər səslənir, İlahi... Bu musiqilərlə illər öncə ulu öndərimizin Şuşaya bir gün qayıdışımızla bağlı inamlı fikirləri çınlayır qulaqlarımda. Dövlətimizin başçısı cənab İlham Əliyevin ata vəsiyyətinin yerinə yetirilməsi ilə bağlı qürurlu cümlələri qarışır bu musiqiyə. "Şuşa, sən azadsan, Şuşa, biz qayıtmışıq" kimi bənzərsiz cümlələr qarışıq musiqi Şuşanın səmasından dumanı çəkir. Günəş doğur bu yurda. Musiqi bayramına ellər sevinir. Dəmir yumruq bu musiqinin təsiri ilə bir daha göylərə qalxır, burada – Şuşada daha əzəmətli, daha təsirli olur. Bir də ən çox təsirli olan budur:

*Əzizim bizim qala,*
*Həmişə bizim qala.*
*Tikmədim özüm qalam*
*Tikmişəm, izim qala.*

Bitir festival... 44 günlük zəfərə bərabər 2 gün bitir. Zəfərin üstünə bir zəfər də gəlir. Düşmənin bağrını çatladan zəfər... Qonşuluqdan pusquda durub dinlədikləri, məğlubiyyətin acı nəticələrini yaşadıqları zəfər... Bu anda azad torpaqlarımızın sevinci insanların üzərində bərq vurduqca, 30 illik həsrəti vüsal qovub qayalardan sonsuz dərələrin dibinə yuvarladıqca, bəli, "bu qala bizim qaladır, həmişə də bizim qaladır", – deyirəm. Bu qalanı yenidən bizimki edən cənab Prezidentimiz və şəhidlərimiz isə Azərbaycan tarixində qala taleli, qala ömürlü şəxsiyyətlərdir: "Tikmədim ki, özüm qalam, tikmişəm, izim qala", – misalı kimi...

**Mətanət MƏMMƏDOVA**
***Azərbaycan Respublikasının Əməkdar jurnalisti***

## Azərbaycan çempionatı yüksək səviyyədə təşkil olunub

***Naxçıvanda təşkil olunan şahmat üzrə kişilər arasında Azərbaycan çempionatında növbəti turun oyunları keçirilib. Tamaşaçıların izlədiyi bir-birindən maraqlı oyunlardan sonra çempionatda mübarizə aparan şahmatçıların fikirlərini öyrəndik.***



*Misrətdin İSGƏNDƏROV (qrossmeyster):* "Keçirdiyim son oyuna ciddi hazırlaşmışdım. Açığı, rəqibin e4 oynamasını gözləyirdim, lakin o, d4-lə oyuna başladı, belə deyək, qədim hind müdafiəsi. Debütdə problemim olmadı, rəqib də səhv oynadı debütü. Bundan istifadə edib üstünlüyü ələ aldım və 6-cı turda ilk qələbəmi qazandım. Yarışın təşkilatçılığına gəlincə, hər şey mükəmməl hazırlanıb. Deyərdim ki, karyeramda oynadığım ən yaxşı yarışların birincisidir. Məqsədim ilk dördlüyə düşmək və final mərhələsinə vəsiqə qazanmaqdır. Rəqiblərimə və özümə qarşıdakı oyunlarda uğurlar arzulayıram".



*Aydın SÜLEYMANLI (beynəlxalq usta):* "İlk dəfədir, Azərbaycan çempionatı Bakıdan kənarda təşkil olunur. Naxçıvanda keçirilən bütün yarışlar, turnirlər kimi bu çempionat da yüksək səviyyədə öz axarı ilə davam edir. Bakıdan kənarda, başqa bir şəhərdə çempionatda mübarizə aparmaq fərqli, eyni zamanda gözəl hissdir. Deyərdim ki, indiyədək oynadığım ən yaxşı, ən güclü çempionatdır. Təşkilatçılığa gəlincə, çempionatın təşkili yüksək səviyyədədir və şahmatçılar üçün hər bir şərait yaradılıb. Buna görə təşkilatçılara minnətdarlığımı bildirirəm. Keçirdiyim görüşlərin yarısında qələbə, yarısında heç-heçə etmişəm. Düşünürəm ki, belə güclü heyətli turnirdə bu, aşağı nəticə deyil. Yarışın başa çatmasına bir neçə tur qalır. İndidən kimin qalib gələcəyini demək çətindir. Digər tərəfdən beynəlxalq qrossmeysterlərlə görüşlər məni qorxutmur. Hələ, əksinə, bu çempionatda iştirak etməyi çox istəyirdim. Çünki özündən güclülərlə oynamasan, güclənə bilməzsən. Buna görə bura çox böyük motivasiya ilə gəlmişəm".

## Komanda-qərargah təlimi başlayıb



Tədris ilinin döyüş hazırlığı planına uyğun olaraq Naxçıvan Qarnizonunda müxtəlif qoşun növü birləşmə və hissələrinin cəlb edildiyi komanda-qərargah təlimi başlayıb.

Komanda-qərargah təlimində praktik fəaliyyətlərə cəlb olunan birləşmə və hissələr təlim-döyüş tapşırıqlarına uyğun "Həyəcan" siqnalı ilə qaldırılaraq təyinat rayonlarına çıxarılıb.

Qoşunların fəaliyyətinin düşmənin hava kəşfiyyat vasitələrindən gizlədilməsi məqsədilə onların ərazidə maskalanması aparılıb. Maskalanma zamanı idarəetmə məntəqələrinin, cəmləşmə rayonlarının



və döyüş texnikalarının saxta mövqelərinin yaradılmasına, müxtəlif növ texniki vasitələrlə təchiz edilməsinə xüsusi diqqət yetirilib.

**Kənan CƏLİLOV**

## Şahmat üzrə Azərbaycan çempionatı başa çatmaq üzrədir




***Naxçıvan Muxtar Respublikasında ilk dəfə təşkil olunan şahmat üzrə kişilər arasındakı Azərbaycan çempionatı başa çatmaq üzrədir. Artıq çempionatda 3-cü yer uğrunda, eyni zamanda finalın ilk oyunu keçirilib.***

Azərbaycan çempionatında iştirak edən şahmatçılarımız dairəvi sistem ilə keçən mərhələni artıq arxada qoyublar. Son tura qədər final mərhələsinə vəsiqə uğrunda gərgin mübarizə gedib. Belə ki, finala çıxan dördüncü yer əlavə göstərici – qələbə sayı əsasında müəyyən olunub. Final mərhələsinə yüksələn şahmatçıları Vasif Durarbəyli, Nicat Abasov, Eltac Səfərli və Nicat Məmmədov olub. Ümumiyyətlə, reqlamentə əsasən 11 turdan sonra ilk 4 pillədə qərarlaşan zəka sahibləri bu mərhələyə yüksəliblər.

Yarımfinalda qrossmeyster Eltac Səfərli (2598) qrossmeyster Nicat Abasovla (2665), qrossmeyster Vasif Durarbəyli (2606) isə qrossmeyster Nicat Məmmədovla (2609) üz-üzə gəlib. Bu mərhələnin ilk günündə oyunda ağ fiqurlarla oynayan Eltac üstünlük əldə edə bilməyib. Buna səbəb kimi Nicat tərəfindən seçilən açılış variantını da qeyd etmək olar. Oyunların ikinci günündə isə Nicat Abasov ilə Eltac Səfərli qısa müddət ərzində heç-heçəni qeydə alıblar. Tay-brekdə 2:0 hesabı ilə qələbə qazanan Nicat finalda oynamaq hüququ qazanıb.

İkinci cütün oyununda, Nicat Məmmədov ilə Vasif Durarbəyli arasında, ağların kiçik üstünlüyünün olduğunu, lakin qarşı tərəfin vəziyyətində zəifliyin olmadığını görmək olardı. Nicat tərəfindən buraxılan səhv nəticəsində qara fiqurlar dəqiq gedişlər ilə üstünlüyü ələ keçirib və Vasif ilk oyunda çox önəmli qələbə əldə edib. İkinci oyunda isə Nicat Məmmədov qara fiqurlarla oynamağına baxmayaraq, üstünlük əldə edə bilməyib və imkanlarından düzgün istifadə edə bilməyərək məğlub olub.

3-cü yer uğrunda keçirilən ilk görüşdə Eltac Səfərli ilə Nicat Məmmədovun oyununda "sülh" qeydə alınıb. Finalın ilk ayağında Nicat Abasov ilə Vasif Durarbəyli üz-üzə gəliblər. Görüş heç-heçə başa çatıb.

Qeyd edək ki, ikinci görüşlər bu gün keçiriləcək və qalib müəyyənləşəcək.

**Ceyhun MƏMMƏDOV**

## Şəhid ailələrinə və Vətən müharibəsi qazilərinə xüsusi səhiyyə xidməti göstərilir

***Muxtar respublika ərazisində yerləşən səhiyyə müəssisələri şəhid ailələrinə və qazilərə yüksək səviyyədə səhiyyə xidmətinin göstərilməsini davam etdirirlər.***

Bu humanitar tədbirdə "Naxçıvan Muxtar Respublika Xəstəxanası" publik hüquqi şəxsi fəal rol oynayır. Belə ki, mart ayının 15-dən may ayının 1-dək şəhid ailələrindən 35 nəfər müalicə üçün xəstəxanaya müraciət edib. Onlardan 32 nəfər ambulator, 3 nəfər isə stasionar müalicə alıb.

Həmin müddətdə 21 nəfər Vətən müharibəsi qazisi də tibbi müayinələrlə əhatə olunub. Onlardan 19 nəfər ambulator, 3 nəfər isə stasionar müalicə alıb. Müayinə və müalicələrdə müxtəlifixtisaslı həkimlər və orta ixtisaslı tibb işçilərinin iştirakı



təmin olunub.

Qeyd edək ki, şəhid ailələrinə, Vətən müharibəsi qazilərinə və onların ailə üzvlərinə göstərilən səhiyyə xidmətinin, həmçinin ehtiyac olan dərmanların ödənişsiz təmin edilməsi və digər xidmətlərin yüksək səviyyədə təmin edilməsi məqsədilə Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyində xüsusi komissiya yaradılmışdır.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***

### İtmişdir

Rəcəbov Malik Heydər oğlunun adına olan müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusunun hərbi vəsiqəsi itdiyindən etibarsız sayılır.

***

Quliyev Fəqət Əmiraslan oğlunun adına verilmiş müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusunun hərbi bileti itdiyindən etibarsız sayılır.

***

Quliyeva Şəfəq Əli qızının adına Naxçıvan Tibb Kolleci tərəfindən verilmiş AA-017990 nömrəli diplom itdiyindən etibarsız sayılır.

***

Şərur rayon Maxta kənd sakini Qasımov Məmməd Mirzə oğlunun adına olan JN-168$^{C}$ inventar nömrəli, 10216018 kodlu "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Naxçıvan şəhər sakini Məmmədova Gözəl Sabir qızının adına olan Heydər Əliyev prospekti, bina 62, mənzil 31-in 21.01.2010-cu il tarixli MH-0015173 seriya nömrəli çıxarışı itdiyindən etibarsız sayılır.

***

Məmmədova Sona İlqar qızının adına Naxçıvan Tibb Kolleci tərəfindən verilmiş 072352 nömrəli diplom itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Nail Əsgərov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1500. Sifariş № 405